رئاسة الشؤون الدينية
بالمسجد الحرام والمسجد النبوي

azərbaycanca | أذري | كَيْفِيَّةُ صَلاةِ النَّبِيِّ صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ

# Peyğəmbərin (sallallahu aleyhi va səlləm) namaz qılma qaydası

Hörmətli Şeyx
Abdüləziz bin Abdullah bin Baz

كَيْفِيَّةُ صَلَاةِ النَّبِيِّ صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ

# Peyğəmbərin (sallallahu aleyhi va səlləm) namaz qılma qaydası

لِفَضِيلَةِ الشَّيْخِ العَلَّامَةِ
عَبْدِ العَزِيزِ بْنِ عَبْدِ اللَّهِ بْنِ بَازٍ
غَفَرَ اللَّهُ لَهُ وَلِوَالِدَيْهِ وَلِلْمُسْلِمِينَ

Hörmətli Şeyx
Abdüləziz bin Abdullah bin Baz

بِسْمِ اللَّهِ الرَّحْمَنِ الرَّحِيمِ

# Peyğəmbərin (sallallahu aleyhi va səlləm) namaz qılma qaydası

**Mərhəmətli və Rəhmli Allahın adı ilə**

Həmd Allaha məxsusdur! Allahın salavatı və salamı Onun qulu və rəsulu olan Peyğəmbərimiz Muhəmmədə, onun ailəsinə və səhabələrinə olsun, daha sonra:

Bu Peyğəmbərin (sallallahu aleyhi və səlləm) namazının keyfiyyətinin bəyanına dair qısa sözlərdir. Onları hər bir müsəlman kişiyə və qadına təqdim etmək istədim ki, onlarla tanış olan hər kəs bu mövzuda ona (peyğəmbərə) tabe olmaqda səy göstərsin; çünki O (sallallahu aleyhi və səlləm) belə buyurmuşdur:

(صَلُّوا كَمَا رَأَيْتُمُونِي أُصَلِّي).

"Məni necə namaz qılan görürsünüzsə, siz də elə namaz qılın!"[1] Oxucuya bunun izahı belədir:

1- Dəstəmazı kamil şəkildə almaq. Bu, Uca Allahın buyurduğuna əməl edərək dəstəmazı Onun əmr etdiyi kimi almaqdır.

﴿يَـٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوٓاْ إِذَا قُمْتُمْ إِلَى ٱلصَّلَوٰةِ فَٱغْسِلُواْ وُجُوهَكُمْ وَأَيْدِيَكُمْ إِلَى

[1] Hədisi Buxari (605) rəvayət etmişdir.

ٱلۡمَرَافِقِ وَٱمۡسَحُواْ بِرُءُوسِكُمۡ وَأَرۡجُلَكُمۡ إِلَى ٱلۡكَعۡبَيۡنِ...﴾.

«Ey iman gətirənlər! Namaza qalxdığınız zaman üzünüzü və dirsəklərə qədər əllərinizi yuyun, başınıza məsh çəkin və ayaqlarınızı da topuqlara qədər yuyun...» [Maidə surəsi, 6-cı]. ayə.

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurur:

(لَا تُقْبَلُ صَلَاةٌ بِغَيْرِ طُهُورٍ).

"Dəstəmazsız namaz qəbul olunmaz"[1].

Peyğəmbər (sallallahu aleyhi və səlləm) namazı pis qılan kişiyə belə demişdir:

(إِذَا قُمْتَ إِلَى الصَّلَاةِ، فَأَسْبِغِ الْوُضُوءَ).

"Namaza qalxdığın zaman kamil şəkildə dəstəmaz al"[2].

2- Namaz qılan, harada olursa-olsun, bütün bədəni ilə qibləyə, yəni: Kəbəyə tərəf yönəlir və qəlbində qılmaq istədiyi fərz və ya nafilə namazını niyyət edir. Niyyəti dili ilə tələffüz etmir, çünki dili ilə niyyəti demək şəriətdə yoxdur, əksinə bidətdir (qadağan olunmuş dini yenilik), belə ki, Peyğəmbər (sallallahu aleyhi və səlləm) də, səhabələri də - Allah onlardan razı olsun - niyyəti dillə deməmişlər. İmamdırsa və ya tək halda namaz qılırsa, qarşısına

---

[1] Hədisi Müslim (224) rəvayət etmişdir.
[2] Hədisi Buxari (5782) rəvayət etmişdir.

"sütrə" qoyur və ona tərəf namaz qılır. Qibləyə yönəlmək namazın şərtidir, lakin elm əhlinin kitablarında izah edilən məlum istisna hallar və məsələlər vardır.

3- "Təkbiratu-l-ehram" edərək (الله أكبر) "Allahu Əkbər" deyib, nəzərini səcdə yerinə yönəldir.

4- Təkbir gətirdikdə əlləri çiyinlərin və ya qulaqların hündürlüyü bərabərində qaldırır.

5- Əlləri sinənin üzərində tutmur, sağ əlini sol əlinin ovucu, biləyi və ön qolunun üzərinə qoyur. Bu, Peyğəmbərdən (sallallahu aleyhi və səlləm) sabitdir.

6- "İstiftəh" duasını (ərəbcə) oxumaq sünnədir, o dua belədir:

(اللَّهُمَّ بَاعِدْ بَيْنِي وبيْنَ خَطَايَايَ، كَمَا بَاعَدْتَ بَيْنَ المَشْرِقِ وَالمَغْرِبِ، اللَّهُمَّ نَقِّنِي مِنَ الخَطَايَا كَمَا يُنَقَّى الثَّوْبُ الأَبْيَضُ مِنَ الدَّنَسِ، اللَّهُمَّ اغْسِلْ خَطَايَايَ بالمَاءِ والثَّلْجِ والبَرَدِ).

"Allahummə baid beyni və beynə xətayaya, kəma bəatdə beynəl-məşriqi vəl-məqrib. Allahummə nəqqini minəl-xətaya kəma yünəqqəs-sövbul-əbyədu minəd-dənəs. Allahumməğsil xətayaya bil-mai vəs-səlci vəl-bərad":(Allahım, şərqlə qərbin arasını uzaqlaşdırdığın kimi, mənimlə günahlarımın arasını uzaqlaşdır. Allahım, ağ paltar çirkdən təmizləndiyi kimi, məni günahlardan təmizlə. Allahım, günahlarımı su, qar

və dolu ilə yu)[1].

İstəsə, bunun əvəzinə belə deyə bilər:

(سُبْحَانَكَ اللَّهُمَّ وبِحَمْدِكَ، وَتَبَارَكَ اسْمُكَ، وَتَعَالَى جَدُّكَ، وَلَا إِلَهَ غَيْرُكَ).

"Sübhanəkəllahummə və bihəmdikə, və təbarəkəsmükə, və təala cəddükə, və lə ilahə ğeyrukə":(Allahım! Sən pak və müqəddəssən. Sənə həmd olsun. Sənin Adın mübarək, əzəmətin isə ucadır. Və Səndən başqa heç bir (ilah; yəni) haqq məbud yoxdur!)[2], Onlardan başqa, Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) varid və sabit olan açılış dualarından birini oxusa da, bunda heç bir qəbahət yoxdur. Daha fəzilətlisi budur ki, bəzən bunu, bəzən də digərini etsin, çünki bu, "ittiba" baxımından daha kamildir. Sonra desin: [Əuzu bi-Lləhi minəş-şeytanir-racim] "Daşlanmış şeytanın şərrindən Allaha sığınırım", [Bismilləhir-Rahmənir-Rahim], və Fatihə surəsini oxusun, çünki Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) belə demişdir:

(لَا صَلَاةَ لِمَنْ لَمْ يَقْرَأْ بِفَاتِحَةِ الكِتَابِ).

"Fatihə surəsini oxumayanın namazı yoxdur (səhih deyildir)"[3]. Sonra “Amin” deyir — səsli qılınan namazlarda səslə, səssiz qılınanlarda isə

---

[1] Hədisi Buxari (744) və Müslim (598) rəvayət etmişdir.
[2] Hədisi Müslim (399) rəvayət etmişdir.
[3] Hədisi Buxari (756) rəvayət etmişdir.

səssiz. Sonra Qurandan müyəssər olanı oxuyur. Ən əfzəl olan budur ki, zöhr, əsr və işa namazlarında Fatihədən sonra "müfəssəl"-in orta hissəsindən, fəcrdə müfəssəlin uzunlarından, məğribdə isə bəzən uzunlarından, bəzən də qısalarından oxusun. Bu, həmin mövzu ilə bağlı gələn hədislərə əməl etməkdir.

7- Rüku edərkən təkbir edib, (الله أكبر) "Allahu Əkbər" deyərək, əllərini çiyinləri və ya qulaqları bərabərinə qaldırır, başını beli ilə bir səviyyədə düz tutur, iki əlini barmaqları aralı şəkildə dizlərinin üstünə qoyur. Rükuda itminanla dayanır və:

«سبحان ربي العظيم» [Subhənə rabbiyəl-azim], "Böyük Rəbbim pak və müqəddəsdir!" - zikrini deyir. Ən fəzilətlisi bunu üç dəfə və ya daha çox təkrarlamasıdır. Bununla yanaşı bu zikri də deməsi yaxşıdır:

(سُبْحَانَكَ اللَّهُمَّ وَبِحَمْدِكَ، اللَّهُمَّ اغْفِرْ لِي).

[Subhənəkə Allahummə va bihəmdikə, Allahummə-ğ-firli], "Allahım! Sən pak və müqəddəssən. Sənə həmd olsun. Allahım, məni bağışla!"[1].

8- Başını rükudan qaldırır, bu zaman əllərini çiyinlərinin və ya qulaqlarının bərabərində qaldıraraq deyir: [Səmi'a-Llahu limən həmidəhu]

[1] Hədisi Buxari (817) və Müslim (484) rəvayət etmişdir.

"Allah Ona həmd edəni eşitdi!" Əgər imamdırsa və ya tək namaz qılandırsa, bu zaman qiyamda belə deyir:

(رَبَّنَا وَلَكَ الحَمْدُ حَمْدًا كَثِيرًا طَيِّبًا مُبَارَكًا فِيهِ مِلْءَ السَّمَوَاتِ وَمِلْءَ الأَرضِ، وَمِلْءَ مَا شِئتَ مِن شَيءٍ بَعدُ).

"Ey Rəbbimiz! Sənə həmd olsun! (Özü də) çoxlu, xoş, mübarək bir həmd, göylər dolusu, yer dolusu və bundan sonra dilədiyin şeylər dolusu (Sənə həmd olsun)".[1]

Əgər məmum (imamın arxasında namaz qılan) isə, rükudan qalxdıqda: «ربنا ولك الحمد» [Rabbənə və ləkəl-həmd] — əvvəl zikr edilənlərin axırınadək — deyir. Əgər onların hər biri — yəni imam, məmum və tək namaz qılan — artırarsa...

(أَهْلَ الثَّنَاءِ وَالْمَجْدِ، أَحَقُّ مَا قَالَ العَبْدُ، وَكُلُّنَا لَكَ عَبْدٌ: اللَّهُمَّ لَا مَانِعَ لِمَا أَعْطَيْتَ، وَلَا مُعْطِيَ لِمَا مَنَعْتَ، وَلَا يَنْفَعُ ذَا الجَدِّ مِنْكَ الجَدُّ).

"Əhləs-sənai vəl-məcdi, əhəggu mə qaləl-abdu, və kullunə lək abd. Allahummə lə məniə limə ə’təytə, və lə mu’tiyə limə mənə’tə, və lə yənfəu zəl-cəddi minəkəl-cədd":"Ey həmd-səna və uca şan-şərəf sahibi! Bəndənin dediyi ən doğru söz budur və hamımız Sənə bəndəyik: Allahım! Sənin verdiyinə mane olacaq, mane olduğunu da verəcək (bir kəs) yoxdur. Heç bir hörmət sahibinə Sənin yanında

[1] Hədisi Buxari (711) və Müslim (598) rəvayət etmişdir.

hörməti fayda verməz".[1] - bu, zikir Peyğəmbərdən (sallallahu aleyhi və səlləm) sabit olduğu üçün deyilməsi yaxşıdır.

Onlardan hər birinin — yəni imamın, mə'mumun və tək (namaz qılan) şəxsin — qiyamda rükudan əvvəl etdiyi kimi, əllərini sinəsinin üzərinə qoyub orada tutması müstəhəbdir. Çünki buna dəlalət edən dəlil, Peyğəmbərdən (sallallahu aleyhi və səlləm) Vail ibn Hucur və Səhl ibn Sə'din - radiya-Llahu 'anhuma- rəvayət etdiyi hədislərdə sabit olmuşdur.

9- (الله أكبر) "Allahu Əkbər" deyərək səcdəyə getməlidir. Mümkün olduqda əvvəl dizlərini, sonra əllərini yerə qoymalıdır. Əgər bu ona çətin gələrsə, əllərini dizlərindən əvvəl yerə qoymalıdır. Ayaq barmaqlarının uclarını və əllərinin barmaqlarını qibləyə tərəf yönəltməli, əllərinin barmaqlarını birləşdirib düz tutmalıdır. Səcdə yeddi əza üzərində edilməlidir. Bu əzalar aşağıdakılardır: alın və burun, iki əl, iki diz, və ayaq barmaqlarının ucları. Səcdədə:

(سبحان ربي الأعلى)

[Subhənə Rabbiyə-l-Ə'la]

"Ən Uca Rəbbim pak və müqəddəsdir!" - deməlidir. Bunu üç dəfə və ya daha çox demək sünnədir. Həmçinin bununla yanaşı:

---

[1] Hədisi Müslim (477) rəvayət etmişdir.

(سُبْحانَكَ اللَّهُمَّ رَبَّنا وبِحَمْدِكَ، اللَّهُمَّ اغْفِرْ لِي).

[Subhənəkə Allahummə Rabbənə va bihəmdikə, Allahummə-ğ-firli], "Allahım! Sən pak və müqəddəssən. Ey Rəbbimiz! Sənə həmd olsun. Allahım, məni bağışla!" - deməsi müstəhəbdir. Və o çoxlu dua edir. Çünki Peyğəmbər (sallallahu aleyhi və səlləm) buyurur:

(أَمَّا الرُّكُوعُ، فَعَظِّمُوا فِيهِ الرَّبَّ، وَأَمَّا السُّجُودُ، فَاجْتَهِدُوا فِي الدُّعَاءِ، فَقَمِنٌ أَنْ يُسْتَجَابَ لَكُمْ).

"Rükuda Rəbbi Uca və ulu tutun. Səcdədə isə çoxlu-çoxlu dua edin. Əlbəttə ki, orada duanızın qəbul olması gercəyə çıxmağa daha yaxındır".[1].

Və Rəbbindən dünya və axirət xeyirlərini istəyir. İstər namaz fərz olsun, istər nafilə, bazularını yanlarından, qarınını budlarından, budlarını isə baldırlarından aralayar və ön qollarını yerdən qaldırar. Çünki Peyğəmbər (sallallahu aleyhi va səlləm) belə buyurmuşdur:

(اعْتَدِلُوا فِي السُّجُودِ، وَلَا يَبْسُطْ أَحَدُكُمْ ذِرَاعَيْهِ انْبِسَاطَ الْكَلْبِ).

"Səcdələrinizi doğru-düzgün yerinə yetirin. Qoy sizlərdən heç kəs (səcdədə) dirsəklərini it kimi yerə qoymasın"[2].

10- Başını təkbir edib, (الله أكبر) "Allahu Əkbər"

[1] Hədisi Müslim (479) rəvayət etmişdir.
[2] Hədisi Buxari (788) və Müslim (493) rəvayət etmişdir.

deyib qaldırır, sol ayağı üzərində oturur, sağ ayağını düz tutur, iki əlini budlarının və dizlərinin üstünə qoyur və deyir:

(رَبِّ اغْفِرْ لِي وَارْحَمْنِي وَاهْدِنِي وَارْزُقْنِي وَعَافِنِي وَاجْبُرْنِي).

"Rəbbiğfir li vərhamni vəhdini vərzuqni və afini vəcburni":"Rəbbim, məni bağışla, mənə rəhm et, məni doğru yola yönəlt, mənə ruzi yetir, mənə salamatlıq ver və mənə lütf et!"[1]. Bu oturuşda arxayın oturur.

11- Birinci səcdəni etdiyi kimi ikinci səcdəni də edir, (birinci səcdədə dediyi zikrləri və etdiyi hərəkətləri eyni ilə ikinci səcdədə də təkrar edir) və səcdə etdikdə təkbir yəni "Allahu Əkbər"- deyir.

12- Sonra "Allahu Əkbər" deyərək başını qaldırır və iki səcdə arasında oturduğu kimi yüngül bir oturuşla oturur. Bu oturuşa "istirahət oturuşu" deyilir. Bu, müstəhəbdir. Tərk edərsə, ona görə heç bir günah yoxdur. Bu oturuşda nə zikr, nə də dua vardır. Sonra mümkündürsə dizlərinə söykənərək ikinci rükət üçün ayağa qalxır. Əgər bu ona çətin gələrsə, əllərini yerə qoyaraq qalxır. Daha sonra əl-Fatihə surəsini və əl-Fatihədən sonra Qurandan ona asan gələni oxuyur. Sonra birinci rükətdə etdiklərini eyni ilə edir.

13- Əgər namaz iki rükətli olarsa — yəni iki

[1] Hədisi Tirmizi (284), Əbu Davud (850) və İbn Macə (898) rəvayət etmişdir.

rükət — fəcr, cümə və iki bayram namazı kimi, ikinci səcdədən qalxıb oturduqda sağ ayağını dik tutur, sol ayağını yerə sərərək onun üzərində oturur, sağ əlini sağ budunun üstünə qoyur, şəhadət barmağı istisna olmaqla bütün barmaqlarını qatlayır və onu qaldırıb tövhidə işarə edir. Əgər sağ əlində adsız və çeçələ barmağını qatlayıb, baş barmaqla orta barmağını dairəvi halda saxlayıb və şəhadət barmağı ilə işarə edərsə, bu da gözəldir. Çünki bu iki sifət Peyğəmbərdən - sallallahu aleyhi va səlləm- sabit olmuşdur. Bunu bəzən belə, bəzən də elə etmək daha əfzəldir. Sol əlini sol budunun və dizinin üzərinə qoyur. Sonra bu oturuşda təşəhhüd duasını oxuyur və o belədir:

(التَّحِيَّاتُ لله والصَّلَوَاتُ والطَّيِّبَاتُ، السَّلَامُ عَلَيْكَ أَيُّهَا النَّبِيُّ وَرَحْمَةُ اللهِ وَبَرَكَاتُهُ، السَّلَامُ عَلَيْنَا وَعَلَى عِبَادِ اللهِ الصَّالِحِينَ، أَشْهَدُ أَنْ لَا إِلَهَ إِلَّا اللهُ وأَشْهَدُ أَنَّ مُحَمَّدًا عَبْدُهُ ورَسولُهُ).

[ət Təhiyyətu lilləhi, va-s-saləvatu, va-t-tayyibətu, əs Sələmu aleykə əyyuhə-n-nəbiyyu va rahmətullahi va bərakətuhu, əs Sələmu aleynə va alə ibədi-l-ləhi-s-Salihin. Əşhədu əllə iləhə illəllahu va əşhədu ənnə Muhəmmədən abduhu va rasuluhu] - "Salamlar, dualar və gözəl şeylər Allaha aiddir. Ey Peyğəmbər, sənə Allahın salamı, mərhəməti və bərəkəti olsun! Bizə və Allahın əməlisaleh qullarına salam olsun! Mən şahidlik

edirəm ki, Allahdan başqa ibadətə layiq məbud yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və elçisidir". Sonra belə deyir:

(اللَّهُمَّ صَلِّ عَلَى مُحَمَّدٍ وَعَلَى آلِ مُحَمَّدٍ، كَمَا صَلَّيْتَ عَلَى إِبْرَاهِيمَ وَعَلَى آلِ إِبْرَاهِيمَ؛ إِنَّكَ حَمِيدٌ مَجِيدٌ، وَبَارِكْ عَلَى مُحَمَّدٍ وَعَلَى آلِ مُحَمَّدٍ، كَمَا بَارَكْتَ عَلَى إِبْرَاهِيمَ وَعَلَى آلِ إِبْرَاهِيمَ؛ إِنَّكَ حَمِيدٌ مَجِيدٌ).

"Allahumme səlli ala Muhəmmədin və ala əli Muhəmmədin, kəma səlleytə alə İbrahimə və alə əli İbrahimə. İnnəkə Həmidun Məcidun. Və bərik alə Muhəmmədin və alə əli Muhəmmədin, kəma bəraktə alə İbrahimə və alə əli İbrahimə. İnnəkə Həmidun Məcidun":"Allahım! İbrahimə və İbrahimin ailəsinə xeyir-dua verdiyin kimi, Muhəmmədə və Muhəmmədin ailəsinə də xeyir-dua ver! Şübhəsiz ki, Sən Tərifəlayiqsən, Şan-şöhrətlisən! Allahım! İbrahimə və İbrahimin ailəsinə bərəkət verdiyin kimi, Muhəmmədə və Muhəmmədin ailəsinə də bərəkət ver! Şübhəsiz ki, Sən Tərifəlayiqsən, Şan-şöhrətlisən!"[1].

Dörd şeyin şərindən Allaha sığınaraq belə deyir:

(اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِن عَذَابِ جَهَنَّمَ، وَمِنْ عَذَابِ القَبْرِ، وَمِنْ فِتْنَةِ المَحْيَا وَالْمَمَاتِ، وَمِنْ شَرِّ فِتْنَةِ المَسِيحِ الدَّجَّالِ).

"Allahumma inni əuzü bikə min əzabi cəhənnəm, və min azəbil-gəbri, və min fitnətil-

[1] Hədisi Buxari (797) və Müslim (402) rəvayət etmişdir.

məhya vəl-məmati, və min şərri fitnətil-məsihid-dəccəl""Allahım! Cəhənnəm əzabından, qəbr əzabından, həyatın və ölümün fitnəsindən və Məsih Əd-dəccəlin fitnəsinin şərindən Sənə sığınıram".[1]

Sonra dilədiyi dünya və axirət xeyirlərini istəyərək dua edir. Valideynləri üçün və ya digər müsəlmanlar üçün dua etməsində də heç bir maneə yoxdur (istər namaz fərz olsun, istər nafilə), çünki bu, Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) İbn Məsudun (Allah ondan razı olsun) təşəhhüdü ona öyrətdiyi vaxt buyurduğu ümumi kəlamına daxildir:

(ثُمَّ لِيَتَخَيَّرْ مِنَ الدُّعَاءِ بَعْدُ أَعْجَبَهُ إِلَيْهِ فَيَدْعُو).

"Sonra dualardan istədiyini seçsin və Allaha dua etsin"[2]. Başqa bir ləfizdə rəvayət olunur ki,

(ثُمَّ لِيَخْتَرْ مِنَ الْمَسْأَلَةِ مَا شَاءَ).

"Sonra dualardan istədiyini seçsin"[3].

Bu, qula dünyada və axirətdə fayda verən bütün şeyləri əhatə edir. Sonra sağ və sol tərəfə «السَّلام عليكم ورحمة الله» [əs-Sələmu aleykum va rahmatullah]:"Allahın salamı və rəhməti sizin üzərinizə olsun" - deyərək salam verir.

14- Əgər namaz məğrib kimi üç rükətli, yaxud

---

[1] Hədisi Buxari (1311) və Müslim (588) rəvayət etmişdir.
[2] Hədisi Nəsai (1298) rəvayət etmişdir.
[3] Hədisi Müslim (402) rəvayət etmişdir.

zöhr, əsr və işa kimi dörd rükətli olarsa, yuxarıda qeyd olunan təşəhhüd duasını Peyğəmbərə (Allahın salavatı və salamı onun üzərinə olsun) salavat gətirməklə oxuyur. Sonra dizlərinə dayanaraq ayağa qalxır, əllərini çiyinləri və ya qulaqları ilə eyni hündürlüyə qədər qaldırıb: "Allahu Əkbər" - deyir və əvvəl qeyd olunduğu kimi əllərini sinəsinin üzərinə qoyur. Yalnız Fatihə surəsini oxuyur. Lakin bəzən zöhr namazının üçüncü və dördüncü rükətlərində Fatihədən əlavə də oxusa, maneə yoxdur; çünki Əbu Səid (Allah ondan razı olsun) vasitəsilə Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) buna dəlalət edən hədis varid olmuşdur. Birinci təşəhhüddən sonra Peyğəmbərə (Allahın salavatı və salamı onun üzərinə olsun) salavat gətirməyi tərk etsə də, maneə yoxdur; çünki bu, müstəhəbdir və birinci təşəhhüddə vacib deyil. Sonra məğribin üçüncü rükətindən sonra, zöhr, əsr və işa namazlarının isə dördüncü rükətindən sonra təşəhhüd duasını oxuyur; bu, iki rükətli namazda qeyd olunduğu kimidir. Sonra başını sağa və sola çevirərək salam verir. Sonra Allahdan üç dəfə bağışlanma diləyir. Sonra deyir:

(اللَّهُمَّ أَنْتَ السَّلَامُ وَمِنْكَ السَّلَامُ، تَبَارَكْتَ يَا ذَا الجَلَالِ وَالإِكْرَامِ).

[Allahummə ən-tə-s-sələmu va minkə-s-sələmu, təbəraktə yə zə-l-cələli va-l-ikram] "Allahım! Salam

Sənsən və əmin-amanlıq Səndəndir. Ey əzəmət və ehtiram sahibi! Sən xeyirxahsan"[1]. Əgər imamdırsa, camaata tərəf dönməzdən əvvəl belə deyər. Daha sonra isə belə deyir:

(لَا إِلَهَ إِلَّا اللهُ وَحْدَهُ لَا شَرِيكَ لَه، لَهُ المُلْكُ، ولَهُ الحَمْدُ، وَهُوَ عَلَى كُلِّ شَيءٍ قَدِيرٌ، لَا حَوْلَ وَلَا قُوَّةَ إِلَّا بِالله، اللَّهُمَّ لَا مَانِعَ لِمَا أَعْطَيْت، ولَا مُعْطِيَ لِمَا مَنَعْت، وَلَا يَنْفَعُ ذَا الجَدِّ مِنْكَ الجَدُّ، لَا إِلَهَ إِلَّا اللهُ، وَلَا نَعْبُدُ إِلَّا إِيَّاهُ، لَهُ النِّعْمَةُ وَلَهُ الفَضْلُ، وَلَهُ الثَّنَاءُ الحَسَنُ، لَا إِلَهَ إِلَّا اللهُ مُخْلِصِينَ لَهُ الدِّينَ وَلَو كَرِهَ الكَافِرُونَ).

"Lə iləhə illəllah, vəhdəhu lə şərikə ləhu, ləhul-mülkü və ləhul-həmdu, və hüvə alə kulli şeyin qədir. Lə həulə və lə quvvətə illə billəh. Allahummə lə mənia limə ə’taytə, və lə mu’tiya limə mənə’tə, və lə yənfəu zəl-cəddi minəkəl-cəddu. Lə iləhə illəllahu, və lə nə’budu illə iyyəhu, ləhun-ni’mətu və ləhul-fədlu, və ləhus-sənəul-həsənu. Lə iləhə illəllah, muxlisına ləhud-dinə və ləu kərihəl-kafirun":"Allahdan başqa məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur. Mülk Onundur və həmd Onadır! O hər şeyə Qadirdir! Qüdrət və güc yalnız Allahdadır! Allahım! Sənin verdiyinə mane olacaq, mane olduğunu da verəcək (bir kəs) yoxdur. Heç bir hörmət sahibinə Sənin yanında hörməti fayda verməz. Allahdan başqa məbud yoxdur. Biz yalnız

[1] Hədisi Müslim (591) rəvayət etmişdir.

Ona ibadət edirik. Nemət Onundur, lütf Onundur və gözəl tərif Onadır. Allahdan başqa məbud yoxdur. Kafirlərə xoş gəlməsə də, biz dini yalnız Ona məxsus edirik!"[1]

Otuz üç dəfə "subhən Allah" deyər, eyni sayda "əlhəmdulilləh" deyər, eyni sayda "Allahu Əkbər" deyər və yüzü tamam etmək üçün belə söyləyər: "Lə iləhə illəllahu vəhdəhu lə şərikə ləhu, ləhul-mulku və ləhul-həmdu və huvə alə kulli şeyin qadir". Hər namazdan sonra Ayətəl-Kürsini, "Qul huvəllahu Əhəd", "Qul əuzü birabbil-fələq" və "Qul əuzü birabbin-nas" - surələrini oxuyar. Allah Rəsulundan (Allahın salavatı və salamı onun üzərinə olsun) bu barədə hədislər gəldiyinə görə, sübh və məğrib namazlarından sonra bu üç surəni üç dəfə təkrarlamaq müstəhəbdir. Bu zikrlərin hamısı sünnədir, fərz deyildir.

Hər bir müsəlman kişi və qadın üçün zöhr namazından əvvəl dörd rükət, ondan sonra iki rükət, məğribdən sonra iki rükət, işa namazından sonra iki rükət və sübhdən əvvəl iki rükət nafilə namaz qılmaq müstəhəbdir. Cəmi on iki rükətdir. Bu namazlara "ratibə sünnələr" deyilir. Çünki Peyğəmbər (sallallahu aleyhi və səlləm) müqim (yerli) olduğu vaxtlarda onları davamlı olaraq qılardı. Səfərdə isə Peyğəmbər (sallallahu aleyhi və

[1] Hədisi Müslim (402) rəvayət etmişdir.

səlləm) sübh namazının ratibə sünnəsi və vitirdən başqa ratibə (sünnə) namazlarını tərk edərdi. Çünki o, bu iki namazı həm yerli, həm də səfərdə ikən daim qılardı. Ən əfzəl olan, bu ratibə (sünnə) namazlarının və vitirin evdə qılınmasıdır. Lakin onları məsciddə qılarsa, eyib etməz. Çünki Peyğəmbər (sallallahu aleyhi və səlləm) belə buyurmuşdur:

(أَفْضَلُ صَلَاةِ الْمَرْءِ فِي بَيْتِهِ، إِلَّا الصَّلَاةَ الْمَكْتُوبَةَ).

"Kişinin ən fəzilətli namazı evində qıldığı namazdır, fərz namaz istisna olmaqla"[1].

Bu rükətləri qorumaq, cənnətə daxil olmağın səbəblərindəndir. Çünki Peyğəmbər (sallallahu aleyhi və səlləm) demişdir:

(مَنْ صَلَّى اثْنَتَيْ عَشْرَةَ رَكْعَةً فِي يَومٍ وَلَيْلَةٍ، بُنِيَ لَه بِهِنَّ بَيْتٌ فِي الجَنَّةِ).

(Kim bir gecə və gün ərzində on iki rükət namaz qılarsa, Allah onun üçün Cənnətdə ev tikər)[2].

Əgər əsr namazından əvvəl dörd rükət, məğrib namazından əvvəl iki rükət və işa namazından əvvəl iki rükət qılarsa, bu yaxşıdır. Çünki bu barədə Peyğəmbərdən (sallallahu aleyhi və səlləm) dəlalət edən səhih hədislər sabit olmuşdur. Əgər zöhr namazından sonra dörd rükət və ondan əvvəl dörd rükət qılarsa, bu da yaxşıdır. Çünki Peyğəmbər

[1] Hədisi Buxari (6860) rəvayət etmişdir.
[2] Hədisi Müslim (728) rəvayət etmişdir.

(sallallahu aleyhi və səlləm) belə buyurmuşdur:

(مَنْ حَافَظَ عَلَى أَرْبَعِ رَكَعَاتٍ قَبْلَ الظُّهْرِ، وَأَرْبَعٍ بَعْدَهَا حَرَّمَهُ اللَّهُ عَلَى النَّارِ).

"Kim zöhr namazından əvvəl dörd rükət və zöhr namazından sonra da dörd rükət (nafilə) namaz qılarsa, Allah onu Cəhənnəm oduna haram edər"[1]. Məna budur ki, zöhrdən sonra, ratibə sünnəsindən əlavə olaraq iki rükət də qılır. Çünki zöhrün ratibə sünnəsi zöhrdən əvvəl dörd, sonra isə iki rükətdir. Belə etsə, zöhrdən sonra iki rükət də artırmaqla Ümmü Həbibə -Allah ondan razı olsun - hədisində zikr olunan fəzilətə nail olar.

Allah uğur və müvəffəqiyyət sahibidir. Allahın salatı və salamı Peyğəmbərimiz Muhamməd ibn Abdullahın, onun ailəsinin, bütün səhabələrinin və Qiyamət gününədək ona gözəl şəkildə tabe olanların üzərinə olsun.

❊❊❊

1 İmam Əhməd (25547), Tirmizi (393) və Əbu Davud (1077) rəvayət etmişdir.

رئاسة الشؤون الدينية
بالمسجد الحرام والمسجد النبوي

# رسالة الحرمين

# Message of The Two Holy Mosques

Guidance content for the visitors of the Holy Mosque and the Prophet's Mosque in languages.